# VƏTƏNDAŞ CƏMİYYƏTİNDƏ GƏNCLƏRİN ROLU

*Cəmiyyətin əsas hərəkətverici qüvvəsi kimi tanınan gənclər ictimaiyyətin dinamik təbəqəsini təşkil edir. Ona görə də adı adətən yeniliklərlə hallanan gənclik böyük təsir gücünə malik qüvvədir. Maraqlıdır, bəs vətəndaş cəmiyyətinin inkişafında bu təbəqənin hansı rolu var? Gənclər demokratikləşməyə necə təsir göstərə bilər? Yazımızda bu mövzuya aydınlıq gətirmək istədik.*

«TürkBirDev» birliyinin Azərbaycan üzrə təmsilçisi Samir Turan bildirdi ki, vətəndəş cəmiyyəti geniş məhfumdur: «Azərbaycan da 20 illik müstəqillik tarixində vətəndaş cəmiyyəti quruculuğunda ciddi işlər görməyə can atır və çox vaxt da buna nail olmaqdadır. Toplum olaraq sovet dövründən miras qalan köhnə düşüncələr yeni və fəal vətəndaş düşüncəsinə çevrilir. Vətəndaş cəmiyyətinin Azərbaycanda yeni qurulmasını və yeni düşüncə olmasını nəzərə alsaq, gənclik sözün həqiqi mənasında ölkəmizin demokratikləşməsi üçün əsas rol oynayır.

Son dövrlər Azərbaycan gəncliyi vətəndaş cəmyyəti quruculuğunda yaxından iştirak edir və fəal vətəndaş kimi özünü göstərir. Lakin gənclərin də vətəndaş cəmiyyətilə bağlı müxtəlif mövqeləri və fikirləri var. Məsələn, bəzi gənclər xaricdə gördükləri vətəndaş cəmiyyəti modellərini «kopya»lamağa və cəmiyyətimizə tətbiq etməyə çalışırlar. Bir qism gənclər isə fəal vətəndaş olaraq azad düşüncə, söz azadlığı və demokratikləşmənin digər sahələrində fəaliyyət göstərərək, vətəndaş cəmiyyətinin qurulmasında iştirak edirlər».

Onun sözlərinə görə, gənclərimizin vətəndaş cəmiyyətinin inkişafındakı rolundan razı deyil: «Əslində gənclərimizin bu istiqamətdə fəaliyyəti məni tam qane etmir. Gərək biz düşünək ki, cəmiyyət olaraq əvvəl harada olmuşuq, indi haradayıq və ya harada ola bilərdik. Əlbəttə ki, gənclər vətəndaş cəmiyyəti quruculuğunda daha da öndə ola bilərdilər. Lakin bu proses çox ləng baş verir. Halbuki, bu mərhələni daha sürətli və səhvlərə yol vermədən keçməliyik. Açığı, mən gəncliyimizin daha cəsarətli və qurucu olmalarını gözləyirəm. Bir məsələni də qeyd edim ki, Azərbaycanda vətəndaş cəmiyyəti anlayışı toplumda fərqli formalarda qəbul olunur.

Bəzi hallarda mahiyyətindən çox formasını müzakirə edirlər. Bununla belə, düşünürəm ki, bugünkü gənclik ümumi halda demokratikləşmədə maraqlıdır. Çünki demokratiya olmayan toplumlarda ən çox əziyyət çəkən də gənclərdir. Nəzərə alaq ki, gəncliyin maneəsiz və bərabər inkişafı demokratik mühitdə daha realdır. Bu baxımdan da gənclər demokratikləşmədə ən maraqlı olan təbəqədir».

Samir Turan dedi ki, bugünkü qloballaşma dövründə gənclər hər görüb-eşitdiyi ilə maraqlanır və öyrənmək istəyir: «Deyə bilərəm ki, çoxsaylı gənclər kapitalizmin təsiri nəticəsində sosial durumlarını yaxşılaşdırmaq üçün daha da öndədir. İntellektual gənclik daha yaxşı təhsil almaq üçün çalışır. O ki qaldı Azərbaycan gəncinin problemlərinə, mən belə qeyd edərdim: gənc və problem. Gənc özü problemdir. Çünki bizim kimi dövlətlərdə və toplumda yaşlı nəslin nümayəndələri gəncləri idarə etmək istəyirlər. Buna görə də gənclərə yardım göstərmək əvəzinə, problem yaradırlar.

Burada mövcud sistem və toplumun özündən qaynaqlanan problemlər də var. Əsas problemlərdən biri təhsillə bağlıdır. Bu problem həm orta, həm də ali məktəblərə aiddir.Doğrudur, təhsillə bağlı bir çox addımlar atılır. Məsələn, çox yaxşı maddi bazası olan məktəblər tikilir, bu sahə üzrə yeni qanunlar qəbul olunur. Lakin bu addımlar təhsilin səviyyəsini artırmır. Çünki problem icraçılardadır. Ən yaxşı məktəbi tikmək olar, amma bu ən yaxşı təhsil ocağı olacağı anlamına gəlməz.

Təhsilin keyfiyyətini yalnız çox ciddi dəyişiklik edərək irəli aparmaq olar. Əslində, vətəndaş cəmiyyətinin zəif inkişaf etməsinin əsas səbəblərindən biri də toplumda təhsilin zəif və ya çox aşağı səviyyədə olmasıdır. Çünki təhsilli gənc vətəndaş cəmiyyətinin inkişafında təhsilsiz gəncdən daha yaxşı nəticələrə nail ola bilər. Bu yalnız bugünkü inkişaf baxımdan deyil, davamlı inkişafı təmin etmək və sağlam bünövrə qoyulması üçün də əvəzsizdir.

Bilirsiniz ki, təhsil dünyəviliyi və intellekti əks etdirərsə, gənc bu məntiqin davamı olaraq demokratik mühit və sağlam vətəndaş cəmiyyəti naminə çalışacaq. Vətəndaş cəmiyyətinin inkişafı bir çox amillərdən asılıdır. Bura qanunların məmurlar tərəfindən düzgün icrası, hüquqi dövlət quruculuğunun vətəndaşlar tərəfindən izlənilməsi və ya aktiv iştirakçı kimi qatılması da daxildir. Eləcə də, bu prosesi sürətləndirən QHT-lər və büdcədən maliyyələşməyən digər ictimai qurumlar da aktiv olmalıdır.

Azərbaycanda vətəndaş cəmiyyətilə bağlı yekun olaraq onu demək olar ki, bu gün vəziyyət elə də pis deyil. Lakin daha da yaxşı ola bilər və olmalıdır. Bu baxımdan vətəndaş cəmiyyətinin inkişafını ləngidən səbəbləri aradan qaldırmaqa çox ehtiyac var».

«TürkBirDev»in Azərbaycan üzrə təmsilçisi vurğulayıb ki, Azərbaycan gəncini yüksək səviyyədə mədəni sərvətin əsl sahibi kimi görmək istəyir: «Biz doğulduğumuz, yaşadığımız və yaşatmalı olduğumuz ölkəni, özümüzü tanıdıqdan sonra dünyanı dərk edə bilərik. Azərbaycan gənclərini dünyada öz yaşıdları ilə bərabərhüquqlu, eyni təhsilli və tam sağlam görmək istəyirəm.

Yad ideologiyalardan, yad mədəniyyətlərdən uzaq, haradan gəldiyini, öz kimliyini dərk etmiş əsl azərbaycanlı kimi yetişməsini istəyərdim».

İxtisasca tərcüməçi olan Gülnar Nəbiyeva bildirdi ki, bu gün Azərbaycan gəncinin vətəndaş cəmiyyətinin inkişafında passiv olduğunu düşünmür: «On il əvvəllə müqayisə etsək, yeni nəslin nə qədər çox inkişaf etdiyini görə bilərik. Gənclərin inkişafı üçün hər cür şərait var. Kim passivdirsə, bu onun özündən asılıdır. Deməli, ya inkişaf etmək istəmir, ya da başqa maraqları var.

Mən bir neçə gənclər təşkilatı tanıyıram ki, öz ayaqları üstündə durublar. Ətraflarına çox fəal insanlar yığılıb. Bir yerə toplaşıb razılaşdıqları ortaq bir ideyanı həyata keçirirlər. Elə ideyalar var ki, onları gerçəkləşdirmək üçün sadəcə həvəskar olmalısan. Sənə nə ofis, nə də donor lazım deyil. Tanıdığım bir təşkilat var. Heç ofisləri də yoxdur. Oxuduqları universitetdə, parklarda görüşürlər. Yığışıb maraqlı işlərlə məşğul olurlar. Məsələn, bir küçə seçib orada yerə atılmış zibilləri yığırlar. Məqsəd küçəni təmizləmək deyil, topluma mesaj verməkdir.

Fikrimcə, çox savadlı və fəal gənclərimiz var. Ümumi bir dəyərləndirmə aparsaq, gəncliyimiz haqqında da nikbin rəy vermək olar. Bütün gəncliyimiz passivdir deməklə fəal olanlara qarşı haqsızlıq etmiş olarıq. Pisləməklə nəyəsə nail olmaq mümkün deyil. Necəliyindən asılı olmayaraq bu bizim gənclikdir. Onu həvəsləndirməyə, daha da inkişaf etdirməyə çalışmalıyıq. İlk növbədə vətəndaş cəmiyyətinin əhəmiyyətini və faydalarını təbliğ etmək lazımdır. Passiv olanları da başa salmalıyıq. Çünki kənardan heç kim öz gəncliyini bizə hədiyyə etməyəcək. Bu baxımdan özümüzünkünə sahib çıxıb dəstək olmalıyıq. İstənilən halda isə ölkəmizdə vətəndaş cəmiyyətinin quruculuğu baş verir. Əlbəttə, müəyyən problemlər də var. Bu da təbiidir. Biz bəzən 50-60 il oturuşmuş ölkələrə baxıb Azərbaycanı müqayisə edirik. Unutmamalıyıq ki, sovet rejimindən çıxmış bir ölkəyik. Bütün problemlərə baxmayaraq, irəliyə doğru inkişaf edirik».

«Milli Düşüncə İnstitutu» İctimai Birliyinin rəhbəri Taryel Faziloğlu isə dedi ki, vətəndaş cəmiyyəti dedikdə vətəndaşların dövlətin və cəmiyyətin idaraəetməsində və inkişafında bilavasitə iştirakı nəzərdə tutulur: «Bu da ictimai fəallıq kimi tanınır. Lakin təəssüf ki, Azərbaycanda ictimai fəallıq zəifdir. Belə olan halda hansı vətəndaş cəmiyyətinin quruculuğundan danışmaq olar? O ki qaldı bu prosesdə gənclərin iştirakına, bu da zəifdir. Düzdür, gənclərlə bağlı təşkilatlar var. Lakin bu təşkilatların böyük əksəriyyəti fəaliyyət göstərmir. Belə olan halda gənclərin vətəndaş cəmiyyətinin inkişafındakı rolundan danışmaq nə qədər doğrudur? Bir qrup gənclik də var ki, zamanla başqa ölkələrin təsirinə düşür və onların beşinci kolonlarının üzvlərinə çevrilirlər. Buna dövlət diqqət yetirməli və bu problemlərə doğru strateji həll tapmalıdır».

Onun sözlərinə görə, dünyanın hansı yerindən asılı olmayaraq, gənclik hər zaman dəyişikliyə maraqlıdır: «Bu, Azərbaycanda da belədir. Amma problem ondadır ki, dəyişikliyə nail olmaq üçün seçdikləri yol çox zaman yanlış olur. Çox təəssüf ki, bu gün Azərbaycan gəncini bir çox hallarda çox meşşan həyat maraqlandırır. Xalqımızın dostluq, etibar, mərdlik kimi milli əxlaq dəyərlərinin əvəzinə, bugünkü gənclər arasında daha çox xəyanət, etimadsızlıq, mənfəətçilik kimi düşüncələr yayılıb. Əgər əvvəllər gənclərin söhbətlərində əsas müzakirə mövzusu oxuduqları əsərlər, əhəmiyyətli sosial məsələlər idisə, bu gün daha çox dəyərlərə sığmayan hadisələr haqqında danışırlar. Bu, Azərbaycan xalqının mənəvi dəyərlərinin, eləcə də genefondumuzun necə aşınmasının göstəricisidir.

Bütün bunlara səbəb olan faktorlar isə daha böyük mövzudur. Belə olan halda gənclərimizin vətəndaş cəmiyyətinin inkişafında aktiv rolunu gözləmək olmur. Halbuki Azərbaycan gəncini təhsilli, ictimai cəhətdən fəal, dövlətin və cəmiyyətin idarə edilməsində və inkişafında yaxından iştirak edən, çox böyük məqsədləri və hədəfləri olan, enerjili və özünə güvənən gənc kimi görmək istəyərdim».

Taryel Faziloğlu vurğuladı ki, vətəndaş cəmiyyətinin inkişafında təhsil birinci dərəcəli amildir: «Azərbaycan gəncləri təhsilə nə qədər çox maraq göstərsələr, vətəndaş cəmiyyətinin inkişafına daha həvəslə can atacaqlar. Çünki vətəndaş cəmiyyətinin inkişafının onun gələcəyinə təsir göstərdiyini anlayacaqlar. Unutmaq olmaz ki, təhsil almaq hansısa universiteti bitirib diplom almaq deyil. İnsan təhsil aldığı ixtisası dərindən öyrənməli və təkmilləşməsi üçün öz üzərində çalışmalıdır.

Bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin quruculuğu prosesi gedir və müəyyən müsbət nəticələri də var. Lakin proses zəifdir. Bu da sözügedən sahədə problemlərin olmasıyla bağlıdır. Ümid edirəm ki, zamanla problemlər öz həllini tapacaq və ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı qənaətbəxş olacaq».

*Real Cəfərli,*
*qhtxeber.az*
*17. 01. 2013*